# Möcüzə ağaclar

***Özünün füsunkar gözəlliyi ilə seçilən qədim Qəbələ rayonu müasir turizm diyarına çevrildikdən sonra sürətli inkişaf yoluna qədəm qoymuşdur. Bu gün Qəbələ dünyanın diqqət mərkəzindədir. Bura gələn turistlər bu gözəl diyardan xoş təəssüratla ayrılırlar.***

Qəbələ Dövlət Tarix Bədii Qoruğunun son illərdəki fəaliyyəti də diqqəti cəlb edən amillərdəndir. Turizmin inkişafı ilə əlaqədar qoruq ərazisində mühüm işlər görülmüş, abadlıq işləri aparılmışdır. Arxeoloji qazıntılar zamanı aşkar olunmuş materiallar burada qorunub saxlanılmaqla bərabər həm də nümayiş etdirilir. Qoruq ərazisində olan qazıntıların üzəri metal örtüklərlə örtülüb mühafizə edilir. Bu isə buraya gələn turistlərin geniş marağına səbəb olur.

Qoruğun direktoru Bəhruz Şərifovla apardığımız söhbətdən aydın oldu ki, qoruğun ərazisində 1,06 hektar sahədə yeni meyvə bağı salınmışdır. Söhbət zamanı direktor bildirdi ki, gələcəkdə qoruq ərazisində aparılan abadlıq və quruculuq işlərinin genişləndirilməsi nəzərdə tutulub.

Sonra yeni salınmış meyvə bağının ərazisində olduq. Bacarıqlı və işgüzar aqronom Firavan Məmmədyarovla görüşdük. İşin gedişindən fərəhlənən Firavan yüksək əhval-ruhiyyə ilə bizi məlumatlandırdı. Bildirdi ki, əkilən meyvə tingləri seleksiya yolu ilə yetişdirilib. Calaq edilmiş tinglərin içərisində eləsi var ki, 18 növ meyvə verəcək. Yeni bağın salınmasında qoruğun işçiləri də fədakarcasına çalışıblar. Onlar burada təmənnasız olaraq hətta özlərinə məxsus texnikalardan istifadə edirlər. Bağın ətrafı hasarlanıb, yaxınlığında suvarma üçün süni göl yaradılıb. İşin gedişində Əliyar Nəzirov, Qadir Məmmədov, Fərhad Soltanov, Zabit Mahmudov və başqaları fədakarlıq göstərirlər, Mühafizəçi Hidayət Səfərəliyev yeni, numunəvi bağı göz bəbəyi kimi qoruyur.

Biz də bu yolda onlara uğurlar diləyirik.

✍ **Emin BARATOĞLU.**
**AYB və AJB-nin üzvü.**

# Suvarma işi yaxşılaşdırılır

***Məlum olduğu kimi ölkə Prezidenti cənab İlham Əliyev qeyri-neft sektorunun sürətli inkişafını, ixrac yönümlü məhsul istehsalının artırılmasını əsas vəzifə kimi qarşıya qoymuşdur. Qeyri-neft sektorunda kənd təsərrüfatı məhsulları istehsalı əsas yer tutur və bu artım xeyli dərəcədə suvarma işinin düzgün təşkilindən asılıdır.***

Bütün bunları nəzərə alan rayon suvarma sistemləri idarəsi kəndli təsərrüfatlarını bol və davamlı suvarma suyu ilə təmin etmək üçün bir sıra tədbirlər həyata keçirir. Belə ki, bu ilin birinci rübündə idarənin kollektivi su kanallarının lildən təmizlənməsi sahəsində 92 min kub metr əvəzinə 150 min kub metr iş görmüş, 6 ədəd hidrotexniki qurğu saz vəziyyətə gətirilmişdir. Kanallar 19 min kvadratmetr sahədə kol-kosdan, texnikanın işləməsi mümkün olmayan kiçik suvarma kanallarında 842 kub metr sahə əl əməyi ilə lildən təmizlənmişdir.



Bu ilin fevral-mart aylarında Soltannuxa kəndindən Böyük Əmili kəndi istiqamətinə dağ yamacı ilə çəkilmiş uzun müddət işləməyən kanal bərpa olunmuşdur. Qeyd etmək lazımdır ki, həmin kanalın xidmət sahəsində 15 hektar ərazidə tütün əkini həyata keçiriləcəkdir.

Bir neçə kəndi suvarma suyu ilə təmin edən Tosik kanalı əsaslı surətdə bərpa olunmuş, kanalda suyu artırmaq üçün ətrafda olan qaynama sular kanala birləşdirilmişdir. Hazırda Mamaylı, Yenikənd, Siləyli kəndlərində təsərrüfatlararası kanallar qaydaya salınır.

Rayonumuzun yaşayış məntəqələrinin xeyli hissəsi sələ meyilli dağ çaylarının əhatəsində yerləşir. Yağan güclü yağışların nəticəsində sel sularının yaradacağı təhlükənin qarşısının alınması məqsədilə Bum, Tikanlı, Həmzəli və Dəmiraparan çaylarında çay məcralarının təmizlənməsi işləri aparılır.

2016-cı ilin sentyabr ayında yağan güclü yağış nəticəsində Qəbələ şəhərinin şimal hissəsində təhlükəli daşqın vəziyyəti yaranmışdı. Bunu nəzərə alaraq suvarma sistemləri idarəsinin texnikalarının və işçilərinin köməyilə Dəmiraparan çayının yuxarıda qeyd etdiyimiz ərazilərində müvafiq sahilbərkitmə işləri aparılmışdır. Qaraçayın şəhərin cənubundan keçən hissəsində 100 p/metr beton bəndin tikintisi başa çatdırılmışdır.

✍ **Rais RƏŞİDOV.**

# Ağacəkmə ənənəyə çevrilib

Qəbələdə növbəti ağacəkmə aksiyası keçirilib. İdarə və müəssisələr, eləcə də şəhərimizin sakinləri rayonda təmiz ekoloji mühitin yaradılması və yeni yaşıllıqların salınması məqsədilə Heydər Əliyev prospektinin kənarlarında və şəhərətrafı sahələrdə 1000-dək palıd, göyrüş və qoz tingləri əkiblər. Yeni əkilmiş ağaclara qulluq edilməsi, suvarılması və mühafizə edilməsi üçün tədbirlər müəyyənləşdirilib. Rayon icra hakimiyyətinin təşəbbüsü ilə əmək kollektivləri tərəfindən Beynəlxalq Yer Kürəsi Günü ərəfəsində keçirilən bu nəcib



və xeyirxah kampaniyanın davam etdirilməsi və yaşıllaşdırma işlərinin daha da genişləndirilməsi qərara alınıb.

***«Qəbələ».***
**İlkin VƏLİZADƏ.**

# «Açıq qapı» günü keçirilmişdir

**A**prelin 18-də Qəbələ Dövlət Tarix Bədii Qoruğunda Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü münasibətilə «Açıq qapı» günü keçirilmişdir. Tədbirdə Mirzəbəyli, Çuxur Qəbələ kənd tam orta məktəblərinin şagirdləri iştirak etmişlər.

Mərasimi qoruğun elmi işçisi bu yazının müəllifi açaraq, tarixi abidələrin qorunmasının, tədqiqinin və təbliğinin zəruriliyini bildirib və bu sahəyə dövlət tərəfindən göstərilən qayğıdan danışıb.

Məktəblilər Qafqaz Albaniyasının paytaxtının yerləşdiyi Səlbir və Qala tarixi əraziləri ilə tanış olmuş, burada aparılan arxeoloji qazıntı yerlərinə baxmışlar. Şagirdlərə ekskursiya boyu qoruq haqqında ətraflı məlumat verilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır.

Tədbirdə məktəblilər arasında tariximizlə bağlı bilik yarışması keçirilmişdir. Yarışda fərqlənənlər Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun rəhbərliyi tərəfindən mükafatlandırılmışlar.

Sonda şagirdlərə qoruq haqqında bukletlər, məlumat kitabçaları paylanmış və xatirə şəkli çəkdirilmişdir.

* * *

Tarixi Yerlər Günü münasibətilə Qəbələ Dövlət Tarix Bədii Qoruğuna aprelin 18-də 69 nəfər turist gəlmişdir. Onların 27 nəfəri Rusiya, İngiltərə, Latviya, İtaliya və Avstraliya vətəndaşları, 42 nəfəri isə Bakı, Şəki və Qəbələ sakinləri olmuşdur.

Əlamətdar gün münasibətilə turistlər qoruq ərazisinə ödənişsiz daxil olmuş, onlara Qafqaz Albaniyasının tarixinə və ərazidə aparılan arxeoloji tədqiqatlara dair ətraflı məlumat verilmişdir.

✍ **Mirazim SƏMƏDOV,**
**qoruğun elmi işçisi.**

# Balaca pəhləvan

***Qəbələnin balaca pəhləvanı adlandırılan Fateh Bağırovun 6 yaşı var. O, qeyri-adi və təhlükəli hərəkətləri ilə çoxlarını təəccübləndirə bilir. Sındırılmış şüşələrin üstündə ayaqyalın gəzmək, başı ilə şüşələri əzmək, sonra onun üstünə uzanaraq qarnı üzərinə başqa bir uşağı çıxarmaq, qarnı üstündə çəkiclə çay daşı sındırmaq və s. Bu təhlükəli hərəkətlərin sayını artırmaq da olar.***

Azyaşlı uşaq üçün bu cür təhlükəli hərəkətləri xəsarətsiz başa vurmaq qeyri-mümkündür. Sınmış şüşələrin Fatehin bədəninə xəsarət yetirməməsi hamının marağına səbəb olur.

Qəbələ şəhərində yaşayan balaca pəhləvan bir ildir ki, idmanın cüdo növü ilə məşğuldur. Bu yaxınlarda Gəncədə keçirilən zona yarışında ikinci yeri tutaraq gümüş medal qazanan 6 yaşlı Fatehin ən böyük arzusu tanınmış pəhləvan və cüdo məşqçisi olmaqdır.

Fateh Bağırov müsahibəsində deyib: "Mən şüşədən, daşdan qorxmuram. Başqa uşaqlar mənim etdiyim hərəkətlərdən qorxsa da o hiss məndə yoxdur. Şüşə məni kəsmir. İstəyirəm ki, tanınmış cüdoçu olum, çoxlu medallar qazanım".

"Qəbələ" İdman Klubunun baş məşqçisi, idman ustası, Fatehin məşqçi müəllimi Rail İsmayılov bildirib ki, balaca pəhləvan həmyaşıdlarından fərqli olaraq, çox cəld və bacarıqlıdır, o, hər şeyi tez öyrənir. Bu uşağın qorxu bilməməsi həm də onun digər bir istedadını, pəhləvanlıq bacarığını üzə çıxarıb.

"İdman klubunda 100-dən çox idmançı cüdo ilə məşğul olur. Böyük uğurlarımız var, yetirmələrimiz yığma komandanın üzvləridir. Avropa kuboku yarışında mükafatçımız var. Fateh cüdo ilə cəmi bir ildir ki, məşğul olmasına baxmayaraq, artıq yarışlarda fərqlənir. O, cüdoya olan həvəsi, həm də fərqli düşüncəsi və ağlı ilə seçilir. Fiziki göstəriciləri yaxşı olduğu üçün onun cüdoda uğurlu nəticə əldə edəcəyinə ümidvaram. Eyni zamanda, Fateh bizim bacarıqlı pəhləvanımızdı. Pəhləvanlıq bizim milli idman növümüzdür. Bu yaşda uşağın pəhləvanlıq etməsi, daş və şüşə ilə təhlükəli hərəkətlər yerinə yetirməsi möcüzədir".

Deyirlər ki, ot kökü üstə bitər. Balaca Fatehin atası da idmançıdır. Onun pəhləvan kimi yetişməsində atasının böyük rolu var. Ümid edirik ki, müntəzəm məşqlər edən Fateh tezliklə daha böyük məkanlarda pəhləvan kimi öz məharətini göstərə biləcək.

✍ **Səhrab UMUYEV.**
**«Qəbələ».**

# Kənd təsərrüfatı xəbərləri

**Kürd kəndi** tarixən taxılçılıq, baramaçılıq, heyvandarlıq və sair sahələrdəki uğurları ilə tanınıb. Hazırda kənd əkinçiləri taxıl sahələrində becərmə işləri ilə məşğuldurlar. İcra nümayəndəsi Eyyub Alıyev deyir ki, əkinçilərimiz bu il də tarlalardan bol taxıl əldə etmək əzmindədirlər. Bu kənd özünün tərəvəz və bostan məhsulları ilə də məşhurdur. Artıq sahələrdə tərəvəz və bostan məhsulları əkininin qızğın çağıdır. Bir sözlə, hamı sahədə olduğu üçün kənd çayxanaları da qışdakı qələbəliyini itirib.

**Məlikli kəndində də** camaat əsasən taxılçılıq və heyvandarlıqla məşğul olur. Bu il isə bir çox ailələr daha çox gəlirli olan baramaçılığa üstünlük verib. Artıq kümçülər barama qurdlarının saxlanacağı yerləri qaydaya salır, yem bazasını nəzərdən keçirirlər. Hər kəs öz imkanına uyğun barama qurdu bəsləməyi qərara alıb. Yeni tut tinglərinin əkilməsi bu imkanı yaxın illərdə daha da artıracaqdır.

✍ **Nahidə ƏBDÜRƏHİMOVA.**
**«Qəbələ».**